# V Ə T ƏN TARİXİ

**fənnin**

# P R O Q R A M I

**Bakı – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNIVERSİTETİ**

# V Ə T Ə N T A R İ X İ

***(ən qədim dövrdən bizim günlərədək)***

## Doktorantura və dissertantura hazırlığı üzrə

## PROQRAM

**BAKI – 2019**

*Tərtibçi*: **tarix üzrə fəlsəfə doktoru**
**Nüşabə Yavər qızı Quliyeva**

***Elmi redaktor:*** **tarix üzrə elmlər doktoru,**
**prof. Qabil Əli oğlu Əliyev**

***Rəyçilər:*** **tarix üzrə elmlər doktoru**
**prof. Anar İsgəndərov**
**tarix üzrə elmlər doktoru**
**prof. Zabil Bayramov,**

**N.Y.Quliyeva. Vətən tarixi (Ən qədim dövrdən bizim günlərədək).** Doktorantura və dissertantura hazırlığı üçün fənn proqramı. Bakı, Azərbaycan Universiteti, 2019, 28 s.

Proqram Doktorantura və dissertantura pilləsi üzrə qəbul imtahanlarına hazırlaşmaq üçün nəzərdə tutulmuşdur. Proqramda Azərbaycan tarixinin bütün dövrlər üzrə əsas problemləri qeyd olunmuşdur. Doktorantura və dissertantura pilləsi üzrə qəbul imtahanlarına hazırlığı asanlaşdırmaq üçün hər dövrün önəmli elmi məsələləri üzrə əsas qaynaqlar, zəruri tarixi ədəbiyyat göstərilmişdir.

## Ön söz

Vətən tarixi ixtisası üzrə Azərbaycan Universitetinin doktorantura və dissertantura pilləsi üzrə qəbul imtahanlarına hazırlaşmaq üçün tərtib edilmiş bu proqram ən qədim çağlardan müasir dövrə kimi bütün mərhələləri əhatə edir.

Bu fənn üzrə qəbul imtahanı zamanı Azərbaycanın ən qədim sakinləri, yerli və gəlmə tayfalar, qədim dövlət və cəmiyyətlərin yaranması və qarşılıqlı münasibətləri, yadelli basqınları, feodalizm quruluşunun yaranması və xüsusiyyətləri, Xristianlıq və İslam dinlərinin qəbul edilməsi və doğurduğu nəticələr, qonşu dövlətlərlə qarşılıqlı münasibətlər, Rusiya işğallarına qarşı mübarizə haqqında geniş bilgi verilməlidir. Həmçinin ermənilərin Azərbaycana köçürülməsi, yerli müsəlman-türk əhalisini zorla doğma torpaqlarından sıxışdırması, erməni qatı millətçi təşkilatlarının terrorçuluq fəaliyyəti, erməni dövlətlərinin mövcud olduğu bütün dövrlərdə qonşularına qarşı təcavüzkarlıq siyasəti yeritməsinə xüsusi diqqət yetirməlidir. Ermənistanda tarixən yaşamış yerli azərbaycanlı əhalinin zorla deportasiya edilməsi və monoetnik respublika yaradılması kimi məsələlərdən ətraflı bəhs edilməlidir.

Azərbaycanın müasir vəziyyəti, silahlı münaqişələr və onların həlli istiqamətində atılan addımlar, Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası problemləri də ciddi şərh tələb edir. Bu mövzuların şərhi zamanı dünya birliyinin, beynəlxalq təşkilatların Azərbaycana münasibətdə ikili standartlardan çıxış etməsinin obyektiv və subyektiv səbəblərini əsaslı şəkildə diqqətə çatdırmağı bacarmaq, gəncləri belə vəziyyətlərdən çıxış yollarını tapmağa istiqamətləndirmək tələb olunur.

Azərbaycan tarixi haqqında ədəbiyyat tövsiyyə edilərkən, Sovet dövründə nəşr edilmiş əsərlərə, xüsusən də gürcü və erməni müəlliflərinin əsərlərinə tənqidi yanaşılması zəruriliyi qeyd olunmalıdır. Həmçinin mövzu üzrə sənəd toplulari üzərində işləmək zamanı diqqətli olmaq, mənbənin nə dərəcədə gerçəkiliyi əks etdirdiyini aydınlaşdırmağa çalışmaq lazımdır. Yalnız bu yolla müxtəlif fakt və hadisələr haqqında müstəqil araşdırma aparmaq və obyektiv, qərəzsiz nəticə çıxarmaq mümkündür.

## GİRİŞ

Azərbaycan tarixi fənninin predmeti, məqsəd və vəzifələri. Öyrənilməsi və tədrisinin əsas cəhətləri.

«Azərbaycan» adının yaranması və mənası ilə bağlı əsas fikir və mülahizələr. Azərbaycanın tarixi-coğrafi hüdudları. Cənubi və Şimali Azərbaycan.

Azərbaycanın əhalisi. Etnik tərkibi. Əsas dil ailələri və qrupları.Müasir demoqrafik vəziyyəti.

Azərbaycanın müasir siyasi vəziyyəti, inzibati bölgüsü, sərhədləri. Müstəqil dövlətçiliyin bərpası. Azərbaycan tərkibində muxtar qurumların yaranması səbəbləri və nəticələri.

Azərbaycan tarixi fənninin öyrənilməsinin əhəmiyyəti. Azərbaycan tarixinin Ümumdünya tarixində yeri. Digər fənlərlə əlaqələri.

Azərbaycan tarixinin dövrləşdirilməsi problemi. Əsas nəzəriyyə və mülahizələr.

*Qaynaqların təsnifatı.*

Yazılı mənbələr: daş kitabələr, mixi yazılar. Qədim Şərq mənbələri. Antik müəlliflər Azərbaycan və Azərbaycanlılar haqqında. Suriya, Bizans mənbələri. Qədim yerli mənbələr: Albaniya tarixi, Moksevay Kartlisay, Erməni tarixləri. Hüquqi və kilsə ədəbiyyatı.

Orta əsr tarixçi və xronistləri Azərbaycan və azərbaycanlılar haqqında. Ərəb tarixçi və coğrafiyaşünasları Əl-Kufi, Əl-Bəlazuri, Əl-Fərabi, Əl-Istəxri, Ibn əl-Əsir, Yaqut əl-Həməvinin əsərlərinin Azərbaycanşünaslıq üçün əhəmiyyəti.

Farsdilli qaynaqlar. F.Rəşidəddin, H.Qəzvini, H.Rumlu, I.Münşinin əsərlərində Azərbaycan tarixi problemlərinin şərhi. Osmanlı müəlliflərinin əsərlərində Azərbaycan tarixi məsələləri. Övliya Çələbinin «Səyahətnaməsi». Orta yüzilliklərin yerli qaynaqları. «Dərbəndnamə». Parsadan Qorqicanidze və Təbrizli Arakelin əsərlərinin mənbə kimi əhəmiyyəti.

Avropa səyyah və tarixçilərinin əsərləri, gündəlik və yol qeydləri. Diplomatik yazışmalar.

Rus mənbələri. XVIII-XIX əsrlərdə rus səyyah, məmur və alimləri Azərbaycan haqqında. Rəsmi sənədlər. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları.

Digər mənbələr:

Arxeoloji və etnoqrafik tədqiqatlar. Linqvistika, numizimatika, antropologiya, geneologiya və digər elmlərin nailiyyətlərinin mənbəşünaslıq baxımından əhəmiyyəti.

*Azərbaycan tarixinin tarixşünaslığı.*

Orta əsrlər dövrü tarixi ədəbiyyatının xarakterik cəhətləri. Salnamə və xronikaların Azərbaycan tarixşünaslığında yeri.

Yeni dövr tarixçiləri və tarixi əsərləri: A.Bakıxanov, M.Kazımbəy. "Qarabağnamələr", XIX əsrin sonu – XX əsrin başlanğıcında Azərbaycan tarixinin öyrənilməsi sahəsində fundamental tədqiqatlar.

Sovet dövründə Azərbaycanşünaslığın nailiyyətləri. Çoxcildli akademik nəşrlər: uğurları və kəsirləri. Monoqrafiyalarda Azərbaycan tarixi problemlərinin şərhi məsələri. Z.M.Bünyadov, Ə.S.Sumbatzadə, Y.M.Mahmudov, O.Əfəndiyev və digər tədqiqatçıların əsərlərində məsələlərin araşdırılmasına fərqli yanaşmalar.

Azərbaycan tarixi problemlərinin Avropa və Amerika tarixşünaslığında araşdırılması vəziyyəti. Diskussiya obyekti olan əsas məsələlər.

Azərbaycan tarixinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri.

## *I HİSSƏ*
## *AZƏRBAYCAN QƏDİM VƏ ORTA YÜZİLLİKLƏR DÖVRÜNDƏ*

### AZƏRBAYCAN ƏN QƏDİM DÖVRDƏ

Azərbaycanın relyefinin formalaşması. Təbii-coğrafi şəraiti. Flora və faunasının xarakterik cəhətləri.

Azərbaycan ərazisində ən qədim insan izləri. Borçalıda 2 milyon il əvvələ aid insan qalıqları. Gürcü və alman alimlərinin son tədqiqatları. Azıxantrop.

Daş dövrü abidələri. Ilkin insan düşərgələri: Azıx mağarası, Damcılı, Qazma, Buzeyir və s. mağara düşərgələri. Əhalinin yayılması.

Əkinçilik və maldarlığa keçilməsi. Ən qədim əkinçilik məskənləri. Süni suvarma izləri. Sənətkarlıq sahələri. Metalın kəşfi. Metalişləmə sənəti. Dulusçuluq, toxuculuq.

Tunc dövrü abidələri. Kür-Araz mədəniyyətinin bütün Azərbaycan regionuna yayılması. Əsas əkinçilik və sənətkarlıq mərkəzləri. Kür-Araz mədəniyyətinin xarakterik cəhətləri və qonşu regionlarla əlaqələr.

Dəmir dövrü abidələri. Sənətkarlıq sahəsində baş verən dəyişikliklər. Əkinçiliyin inkişafı. Süni suvarma şəbəkələri. Maldarlığın inkişafı. Maldarlıq təsərrüfatının xarakterik cəhətləri. Maldar tayfaları.

Əmlak bərabərsizliyinin dərinləşməsi. Xüsusi mülkiyyətin yaranması. Azərbaycanın müxtəlif hissələrində tarixi inkişaf sürətlərinin fərqli olması.

Azərbaycan xalqının təşəkkülü problemi. Əsas dil qrupları və onların yayılması. Antropoloji tiplər. Azərbaycanın yerli və gəlmə sakinləri.

Azərbaycan sakinlərinin ilkin dini təsəvvürləri. Ovsun və totemlər. Bütxana və məbədlər.

Ibtidai incəsənət nümunələri. Qobustan, Gəmiqaya rəsmləri. Gil fiqurlar. Şəhər və qalalar inşası. Memarlığın inkişafı.

### AZƏRBAYCAN QƏDİM DÖVRDƏ.
### QƏDİM TAYFA BİRLİKLƏRİ VƏ DÖVLƏTLƏR

Ilkin tayfa birlikləri və dövlət qurumları. E.ə. III-II minilliklərdə Azərbaycanın cənubundakı siyasi birliklərin Ikiçayarası ilə əlaqələri. Kuti, Lullubi dövlət qurumları. Kassilər. Urartu hökmdarlarının Araz çayından şimala yürüşləri. Assuriya və digər qonşu dövlətlərlə əlaqələr.

Azərbaycanın cənubunda yaşayan tayfalar və tayfa bir-likləri e.ə. I minilliyin başlanğıcında. Manna dövləti. Manna tayfalarının Urartu və Assuriya basqınlarına qarşı mübarizəsi.

Kimmer, Iskit yürüşləri. Saklar. Iskit xaqanlığı. Iskitlərin Azərbaycan tarixində yeri. Yunanların Azərbaycan vasitəsi ilə Şərq ölkələri ilə ticarət əlaqəsi yaratmaları.

Şimali və Cənubi Azərbaycan e.ə. I miniliyin ortalarında. Midiya və İranın Cənubi Azərbaycanda ağalığı. Şimali Azər-baycanın qədim sakinləri: məskunlaşdıqları ərazilər, dilləri, təsərrüfat həyatı.

Makedoniyalı Isgəndərin Şərqə hərbi yürüşü və onun Azərbaycan üçün nəticələri. Azərbaycanda müstəqil və yarımmüstəqil dövlətlərin yaranması. Atropaten, Albaniya. E.ə. I minilliyin sonu – yeni eranın başlanğıcında Azərbaycan dövlətlərinin qonşu xalqlar və dövlətlərlə münasibətləri.

Azərbaycanlıların Parfiya və Qədim Romaya qarşı mübarizəsi. Azərbaycan-Parfiya əlaqələri. Roma sərkərdəsi Pompeyin Azərbaycana yürüşü və onun nəticələri. Digər Roma sərkərdələrinin Azərbaycana yürüşləri.

Azərbaycan yeni eranın ilk əsrlərində. Atropatendə Arşakilər sülaləsinin hakimiyyətə gəlməsi. Alanlar. Alan tayfalarının Albaniya və Atropatenə yürüşləri.

Azərbaycanın qədim dövlət və cəmiyyətlərinin ictimai quruluşu və xüsusiyyətləri. Köləlik. Dini görüşlər. «Avesta» və Azərbaycan. Mədəniyyət və incəsənət nümunələri.

## AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ.
## FEODAL MÜNASİBƏTLƏRİNİN YARANMASI

Feodal münasibətlərinin yaranması və xüsusiyyətləri. Feodal təsərrüfatı. Torpaq sahibliyi. Irsi və şərti torpaq mülkləri. Feodallar və asılı əhali zümrələri. Əsas vergi və mükəlləfiyyətlər.

Azərbaycanın əhalisi və dövlətləri III-VII əsrlərdə. Azərbaycan uğrunda Bizans və Sasani imperiyalarının müharibələri və yekunları. Azərbaycanın Sasanilərdən asılı hala düşməsi. Sasani ağalığı dövründə vergi və mükəlləfiyyətlər. Feodal zülmünə və Sasani əsarətinə qarşı mübarizə.

Hun yürüşləri və Azərbaycan. Bulqarlar. Savirlər. Azərbaycanın etnik simasının formalaşmağa başlaması. Türk tayfalarının Azərbaycanda etnik-siyasi proseslərdə rolu. Azərbaycan xalqının təşəkkülü.

Atəşpərəstlik. Xristianlığın yayılması. Feodal münasibətlərinin inkişafında dinin rolu. Kilsənin cəmiyyətdə yeri.

Mədəniyyətin inkişafı. Alban əlifbası. Elm mərkəzləri. Incəsənət. Memarlıq abidələri. Müdafiə sədləri. Qalalar.

## AZƏRBAYCAN VII-IX ƏSRLƏRDƏ. AZƏRBAYCAN UĞRUNDA ƏRƏB-BİZANS-XƏZƏR MÜHARİBƏLƏRİ

Ərəb işğalları ərəfəsində Azərbaycanın iqtisadi, ictimai, siyasi vəziyyəti. Azərbaycan uğrunda Sasani-Bizans rəqabətinin kəskinləşməsi.

Xəzər xaqanlığının yaranması. Azərbaycana Xəzər yürüşləri. Azərbaycana ilk ərəb yürüşləri və ona qarşı mübarizə. Cavanşir. Ərəblərin Azərbaycanda möhkəmlənmək cəhdləri. VII əsrin ortaları və ikinci yarısında Azərbaycan uğrunda Ərəb-Bizans-Xəzər mübarizəsinin güclənməsi. Azərbaycan uğrunda Ərəb-Bizans, Ərəb-Xəzər müharibələri və onların Azərbaycan üçün faciəli nəticələri.

VIII-IX əsrin birinci yarısında Azərbaycanda ərəb ağalığı. Inzibati idarə sistemi. Vergi və mükəlləfiyyətlər. Torpaq sahibliyində baş verən dəyişikliklər. Yerli feodalların sıxışdırılması. Ərəb xilafətinin köçürmə siyasəti. Azərbaycanda ərəb ailələrinin yerləşdirilməsi.

İslamın yayılması. Erməni və alban kilsələrinə xilafətin fərqli münasibəti. Erməni kilsəsinin mövqeyinin möhkəmlənməsi.

Ərəb ağalığına və feodal zülmünə qarşı xalq çıxışları. Xürrəmilər hərəkatı. Babək. Azadlıq mübarizəsinin nəticələri. Azərbaycanda ərəb təsirinin zəifləməsi. Müstəqillik meyllərinin artması.

Mədəniyyətin inkişafı. Məktəb və mədrəsələr. Elmin inkişafı. Ədəbi abidələr. Ərəb dünyası və İslam mədəniyyəti ilə tanışlığın Azərbaycan xalqı üçün əhəmiyyəti.

## AZƏRBAYCANIN FEODAL DÖVLƏTLƏRİ IX ƏSRİN İKİNCİ YARISI - XI ƏSRİN ORTALARINDA

IX əsrin ortaları və ikinci yarısında Azərbaycanın ictimai-iqtisadi və siyasi vəziyyəti. Yarımmüstəqil və müstəqil feodal dövlətlərinin yaranması.

Şirvanşahlar dövləti. Tiflis, Dərbənd əmirlikləri. Sacilər dövləti. Saci hökmdarlarının Cənubi Qafqazı tutmaları. Salarilər dövlətinin yaranması və parçalanması. Azərbaycanda öz təsirini gücləndirmək uğrunda Bizans imperatorlarının gürcü və erməni feodalları ilə yaxınlaşmaq cəhdləri. IX əsrin ikinci yarısı - X əsrdə etnik vəziyyətin xarakterik cəhətləri.

Rusların (slavyanların) Azərbaycana yürüşləri və onun fəlakətli nəticələri.

## AZƏRBAYCAN XI ƏSRİN İKİNCİ YARISI - XIII ƏSRİN BAŞLANĞICINDA

Səlcuq sultanlarının Azərbaycanı özlərinə tabe etmələri. Səlcuq türklərinin Azərbaycana

axınlarının nəticələri. Səlcuq imperiyasının parçalanması və Azərbaycanda müstəqillik uğrunda mübarizə. Atabəylər (Eldənizlər) və Şirvanşahlar dövlətləri. XII-XIII əsrin əvvəllərində Şirvan-Gürcüstan münasibətləri. XII-XIII əsrin ilk onilliklərində qıpçaqlar. Qıpçaq-Azərbaycan əlaqələri.

Feodal münasibətlərinin xarakterik cəhətləri. Torpaq sahibliyində yeniliklər. Əsas vergilər.

Maarifin və mədəniyyətin inkişafı. Elm mərkəzləri. Mədrəsələr. Nizami Gəncəvi. Azərbaycan xalqlarının mədəni əlaqələri. Müsəlman intibahı və Azərbaycan. Azərbaycan intibahı məsələsi.

## AZƏRBAYCANIN MONQOL İŞĞALLARI VƏ ƏSARƏTİNƏ QARŞI MÜBARİZƏSİ

Azərbaycanın feodal dövlətləri monqol yürüşləri ərəfəsində. Monqolların Azərbaycana birinci yürüşü. Təbrizin müdafiəsi. Monqolların Azərbaycanın içərilərinə soxulması. Beyləqan, Şamaxı və digər şəhərlərin müdafiəsi.

Azərbaycanın feodal hakimlərinin monqollara qarşı birgə mübarizə cəhdləri. Gürcüstan-Şirvan əlaqələri. Qıpçaqların Azərbaycana hücumları. Gürcülərin Arana qarətçilik yürüşləri.

Cəlaləddinin Azərbaycana hücumu. Atabəylər dövlətinin süqutu. Azərbaycan torpaqlarının işğalı. Şirvanla və qıpçaqlarla əlaqələr.

Çormoğonun başçılığı ilə monqolların Azərbaycana yeni yürüşü. Cəlaləddinin Azərbaycandan qovulması. Aranın və Şirvanın monqollar tərəfindən işğalı. Azərbaycanda monqol canişinliyinin yaradılması. Monqol xanlarının Azərbaycan əyanlarını sıxışdırması. Torpaq sahibliyində dəyişikliklər. Şəhər həyatının tənəzzülü.

Hülakü xanın Ön Asiyaya və Azərbaycana yürüşü. Hülakülər (Elxanilər) dövlətinin yaranması. Azərbaycana Qızıl Ordunun yürüşləri. Azərbaycan uğrunda Elxani-Qızıl Ordu müharibələri və nəticələri.

Monqol ağalığının fəlakətli nəticələri. Vergi və mükəlləfiyyətlər. Xalq çıxışları. Etnik proseslər. Elxanilər dövlətinin tənəzzülü. Çobani əmirlərinin özbaşınalığı. Azərbaycanda müstəqillik meyllərinin güclənməsi.

Monqol ağalığı dövründə İslam və Xristian dinlərinə münasibətdə fərqli yanaşma. Bütpərəstliyin dirçəldilməsi cəhdləri.

XIII-XIV əsrlərdə Azərbaycan xalqlarının mədəni həyatındakı dəyişikliklər.

## AZƏRBAYCAN XIV ƏSRİN ORTALARI - XV ƏSRDƏ

Cəlairilər dövlətinin yaranması. Şirvanın müstəqillik qazanması. Azərbaycanda Cəlairilərin ağalığı.

Toxtamışın və Teymurun Azərbaycana yürüşləri və onların yerli əhali üçün acınacaqlı yekunları. Azərbaycanda Teymurun ağalığı. Azərbaycan xalqının Teymurun və varislərinin ağalığına qarşı mübarizəsi. Gürcüstanın müstəqillik qazanması.

Baharlı dövlətinin yaranması. Şirvanın və Gürcüstanın tabe edilməsi uğrunda mübarizə. Azərbaycanda ağalıq uğrunda Baharlı və Bayandurlu hökmdarlarının rəqabəti. Bayandurlu dövlətinin yaranması və Azərbaycanda möhkəmlənmək cəhdləri. Uzun Həsənin Gürcüstana yürüşləri.

Azərbaycanın Bayandurlu və Osmanlı dövlətləri arasında rəqabət meydanına çevrilməsi. Malatya və Otluqbeli döyüşlərinin Azərbaycan üçün nəticələri.

Ərdəbil feodallığı. Səfəvi şeyxlərinin Şirvana və Dağıstana yürüşləri.

Şimali Azərbaycan xalqlarının müstəqillik uğrunda mübarizəsi. Əmir Teymurun Şimali Azərbaycana yürüşlərinin nəticələri.

Azərbaycan dövlətlərinin Qərbi Avropa ilə əlaqələri.

Feodal torpaq sahibliyi. Təsərrüfat həyatı. Sənətkarlıq sahələri. Şəhərlər. Ticarətin inkişafı.

XIV-XV əsrlərdə Azərbaycan xalqlarının mədəniyyəti. Mədrəsələr. Elm. N.Tusi. F.Rəşidəddin. Ədəbiyyatın inkişafı. Memarlıq abidələri. Azərbaycan xalqlarının mədəni əlaqələri.

## AZƏRBAYCAN XVI ƏSRDƏ. AZƏRBAYCAN UĞRUNDA SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ

XV əsrin sonu – XVI əsrin başlanğıcında Azərbaycanda sosial-iqtisadi və ictimai vəziyyət. Feodallar və kəndlilər. Iri torpaq sahiblərinin güclənmələri. Sənətkarlıq və ticarətin vəziyyəti. Ticarət yolları.

Azərbaycan Səfəvi dövlətinin yaranması. Səfəvi şahlarının bütün Azərbaycanı fəth etməsi. Azərbaycanda Səfəvi dövlətinin idarəçilik sistemi. Torpaq sahibliyində dəyişikliklər. Vergilər. İqtisadi vəziyyət. Şəhərlər. Sənətkarlıq və ticarət.

Azərbaycan uğrunda Səfəvi-Osmanlı müharibələrinin başlanması. ÇaldİIran döyüşü. XVI əsrin 30-40-cı illərində hərbi əməliyyatlar. Amasiya sülhü.

XVI əsrin 70-80-ci illərində hərbi əməliyyatların gedişi. Osmanlı sultanlarının və Krım xanlarının Azərbaycana hərbi yürüşləri. Azərbaycanın çox hissəsinin Osmanlı imperiyası tərəfindən işğalı. Istanbul sülhü.

Azərbaycanda Osmanlı dövlətinin möhkəmlənmək cəhdləri. İnzibati idarəçilik sistemində dəyişikliklər. Vergi toplanması. Osmanlı ağalığının Azərbaycan xalqının həyatında yaratdığı çətinliklər.

Azərbaycanla Avropa arasında ticarətdə Xəzər-Volqa su yolundan istifadəyə başlanması.

## AZƏRBAYCAN XVII ƏSRİN BİRİNCİ YARISINDA

Azərbaycan XVI əsrin sonu – XVII əsrin başlanğıcında. Azərbaycanın iqtisadi, ictimai-siyasi vəziyyəti. Osmanlı dövlətinin Azərbaycanda tətbiq etdiyi inzibati-idarəçilik sistemi. Vergi və mükəlləfiyyətlər. Xalq kütlələrinin həyat şəraitinin pisləşməsi. Osmanlı ağalığına qarşı mübarizə. Cəla-lilər hərəkatı. Koroğlu.

Səfəvi dövlətində islahatlar. I Şah Abbasın ordu quruculuğu və idarəçilik sahəsində tədbirləri. Azərbaycanda köçürmə siyasəti.

XVII əsrin əvvəllərində Azərbaycan uğrunda Səfəvi-Osmanlı müharibələri. Səfəvi qoşunlarının hərbi uğurları. II İstanbul və Mərənd sülh müqavilələri. I Şah Abbasın Gürcüstana yürüşü. Hörmüzün Portuqaliyadan geri alınması. Böyük İpək yolunun istiqamətinin İran körfəzinə doğru dəyişdirmək cəhdləri.

XVII əsrin 20-30-cu illərində hərbi əməliyyatların gedişi. Səfəvi dövlətinin Azərbaycanda və Dağıstanda mövqeyini möhkəmləndirməsi. Qəsri-Şirin (Zahab) sülhü və onun Azərbaycan üçün nəticələri.

Səfəvi-Osmanlı müharibələrinin Azərbaycan üçün faciəli yekunları. Şərqlə Qərb arasında Azərbaycandan keçən ənənəvi karvan yollarının əhəmiyyətinin azalması. Azərbaycanın xarici ticarət əlaqələrinin zəifləməsi. Beynəlxalq ipək ticarəti əməliyyatları miqyasının kiçilməsi və onun Azərbaycan iqtisadiyyatına təsiri. Təsərrüfatda böhran meyllərinin güclənməsi.

Səfəvi-Osmanlı müharibələrinin Azərbaycanın mədəni həyatına təsiri. İsgəndər bəy Münşi. Alim və şairlərin xarici ölkələrə mühacirət etmələri.

# *II HİSSƏ*
# *YENI DÖVR*

## AZƏRBAYCAN XVII ƏSRİN ORTALARI VƏ İKİNCİ YARISINDA

Azərbaycanda sabitliyin bərqərar olması. Kənd təsərrüfatının inkişafı. Əkinçilik və bağçılıq sahəsində uğurlar. Süni suvarma sistemlərinin təkmilləşdirilməsi.

Şəhərlər və şəhər təsərrüfatı. Sənətkarlıq və ticarətin inkişafı. Səfəvi dövlətinin daxili və xarici ticarətində erməni tacirlərinin imtiyazlı mövqeyi. Azərbaycanın Avropa ilə ipək ticarətinin erməni ticarət kompaniyasının inhisarına keçməsi.

Səfəvi şahlarının erməni kilsəsini himayə etməsi. Gürcü və erməni xristian əhalisinin vəziyyəti. Eçmiədzin katalikosunun Avropadan yardım almaq cəhdləri. Gürcü əsilzadələrinin Səfəvi sarayında yüksək vəzifələr tutması.

Avropa səyyahları Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı haqqında.

XVII əsrin son onilliklərində Azərbaycanın Səfəvi mülklərində iqtisadi vəziyyət. Maliyyə sisteminin tənəzzülü.

XVII əsrin ortalarında Şərqi Gürcüstanda Səfəvi ağalığı. Gürcü şahlarının hakimiyyətini məhdudlaşdırmaq cəhdləri. Azərbaycanın qonşu xalqlarla qarşılıqlı münasibətləri. Azərbaycanın Rusiya, Osmanlı və digər dövlətlərlə əlaqələri.

Rusiyanın Azərbaycana soxulmaq cəhdlərinin güclənməsi. Sunja və Terek çayları boyunda kazak məskənlərinin yaradılması cəhdləri. Səfəvi dövlətinin və Dağıstan feodallarının bu cəhdlərə qarşı mübarizəsi.

## AZƏRBAYCAN XVIII ƏSRİN BİRİNCİ YARISINDA

XVIII yüzilliyin başlanğıcında Azərbaycan beynəlxalq münasibətlər sistemində. Avropa dövlətlərinin və Rusiyanın Şərq siyasətində Azərbaycan məsələsi. Səfəvi dövlətinin ərazisini nüfuz dairələrinə bölmək istiqamətində ilk addımlar.

Azərbaycan XVIII əsrin başlanğıcında. Səfəvi dövlətinin vergi və mükəlləfiyyətləri artırması. Vergi toplanmasında və idarəçilikdə məmur özbaşınalığı və rüşvətxorluğu. Əhalinin vəziyyətinin ağırlaşması. Feodal zülmünə qarşı xalq çıxışları. Şirvanda və Dağıstanda üsyanlar. Hacı Davud və Surxay xan.

Rusiyanın Azərbaycanda möhkəmlənmək cəhdləri. A.Volınskinin Azərbaycana və İrana səfəri. I Pyotrun Xəzəryanı vilayətlərə işğalçılıq yürüşü. Xəzəryanı vilayətlərdə hərbi əməliyyatlar. Xəzəryanı torpaqların Rusiyaya birləşdirilməsi. Peterburq sülhü.

Osmanlı sultanlarının bütün Azərbaycanı ələ keçirmək cəhdləri. Rusiya təcavüzünə qarşı Azərbaycan əhalisinin Osmanlı dövlətindən yardım istəmələri.

Azərbaycanı bölüşdürmək uğrunda Osmanlı-Rusiya mübarizəsi. Istanbul müqaviləsi. Osmanlı dövlətinin Azərbaycanda mövqeyini möhkəmlətmək siyasəti. Osmanlı qoşunlarının Şərqi Gürcüstana və Azərbaycana yürüşləri. Azərbaycanın çox hissəsinin Osmanlı dövlətinə birləşdirilməsi.

Səfəvi dövlətinin süqutu və onun Azərbaycan üçün fəlakətli nəticələri. Azərbaycanın müharibə meydanına çevrilməsi.

Nadirin başçılığı altında yerli əhalinin yadelli işğalçılara qarşı mübarizəsinin başlanması. Rusiyanın Xəzəryanı ərazilərdən qovulması. Rəşt və Gəncə müqavilələri. Nadirin Osmanlı dövlətinə birləşdirilmiş əraziləri geri almaq üçün apardığı hərbi əməliyyatlar və onların nəticələri.

Nadir şahın Azərbaycanda ağalığı. İnzibati idarəçilikdə dəyişikliklər. Vergi və mükəlləfiyyətlərin artırılması. Dövləti möhkəmləndirmək tədbirləri. Aramsız müharibələrin və vergilərin artırılmasının əhalinin maddi vəziyyətini pisləşdirməsi. Azərbaycanda xalq üsyanları. Nadir şahın yaratdığı imperiyanın süqutu və onun Azərbaycan üçün nəticələri.

## AZƏRBAYCAN XVIII ƏSRİN İKİNCİ YARISINDA.

XVIII əsrin ortaları və ikinci yarısında Azərbaycanın iqtisadi, ictimai və siyasi vəziyyəti. Müstəqil dövlətlərin və feodallıqların yaranması və qarşılıqlı münasibətləri.

Quba xanlığının Xəzəryanı vilayətlərdə möhkəmlənməsi. Fətəli xanın xarici siyasəti. Qarabağ xanlığının Azərbaycanın cənubunda və mərkəzində möhkəmlənmək cəhdləri. Feodal hakimlər. Böyük dövlətə çevrilmək uğrunda xanlıqların mübarizəsi.

Rusiyanın Azərbaycanda möhkəmlənmək sahəsində yeni addımları. Akademik S.Q.Qmelinin ekspedisiyaları və onun nəticələri. Azərbaycan feodallarının Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizəsi.

XVIII əsrin 60-80-ci illərində Rusiyanın Azərbaycana soxulmaq cəhdləri. Georgiyevsk

müqaviləsi. Ermənilərin Azərbaycanda xristian dövləti yaratmaq cəhdlərinin güclənməsi. Rusiyanın Azərbaycanda möhkəmlənmək üçün erməni amilindən yararlanmağa çalışması.

XVIII əsrin sonunda Rusiyanın və Qacarlar dövlətinin Azərbaycanda möhkəmlənmək uğrunda rəqabəti. Qacarın yürüşləri. Şuşanın müdafiəsi. Rus ordusunun Azərbaycanın içərilərinə yürüşü və yekunları.

## XVII-XVIII ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Maarif və məktəblər. Elmi biliklərin yayılması. Azərbaycanın əsas elm və maarif mərkəzləri. Görkəmli elm xadimləri.

Azərbaycan tarixi üzrə yeni əsərlər yazılması. Məhəmməd Tahir Vahid. XVIII əsrdə Nadir şahın yürüşləri haqqında əsərlər yazılması istiqamətində addımlar.

Azərbaycanda kitab nəşrinin başlanması təşəbüsləri. Kitab üzü köçürülməsinin geniş miqyas alması və kitabxanaların çoxalması.

Ədəbiyyatın inkişafı. Görkəmli ədib və şairlər. Əsas ədəbi cərəyanlar. M.P.Vaqif, M.V.Vidadi.

İncəsənətin inkişafı. Memarlıq abidələri. Şəki və İrəvan xan sarayları. Miniatür və bədii tikmələr. Xalq sənətləri.

Azərbaycan xalqının mədəni əlaqələri. Dünya və Avropa mədəniyyətinin inkişafına Azərbaycan xalqının töhfələri.

## AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

XIX əsrin başlanğıcında Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi vəziyyət. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Qərbi Avropanın Azərbaycanda Rusiya imperiyasının möhkəmlənmək cəhdlərinə qarşı mübarizəsi. Azərbaycan uğrunda Rusiya-İngiltərə, Rusiya-Fransa rəqabəti.

Rusiyanın Azərbaycanda işğallara başlaması. Azərbaycanın birləşdirilməsi üçün aparılan hərbi əməliyyatlar. Azərbaycan əhalisinin işğalçılara qarşı mübarizəsi. Cavad xan.

Birinci Rusiya-Qacarlar müharibəsinin başlanması. Rus ordusunun İrəvan istiqamətində hücumu. Qəmərli döyüşü. Əsas hərbi əməliyyatlar. Rusiyanın Azərbaycanda yeni ərazi işğallarına qarşı mübarizə. Kürəkçay müqavilələri.

Osmanlı dövlətinin Azərbaycanda Rusiya işğallarına qarşı çıxması. 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsi zamanı Azərbaycanda əsas hərbi əməliyyatlar. Buxarest sülhü və Rusiya-Osmanlı müharibəsinin Azərbaycan üzrə yekunları. Rusiyanın Şimali Azərbaycan torpaqlarında möhkəmlənməsi.

Gülüstan sülhü və Rusiya-Qacarlar müharibəsinin Azərbaycan xalqının tarixi taleyində rolu. Rusiyanın Xəzər hövzəsində hegemonluğu.

Rusiyanın Azərbaycanda müstəmləkə idarə üsulu yaratmaq sahəsində tədbirləri. Yerli idarəçiliyin ləğvi. Çarizmə tərəf keçmiş yerli hakim sülalə üzvlərinə münasibətin dəyişməsi. Komendant idarə üsulu. Rus hərbçilərinin özbaşınalığı və rüşvətxorluğu. Ruslaşdırma siyasəti.

XIX əsrin 20-ci illərində Rusiyanın Azərbaycanda mövqeyini möhkəmləndirməsinə qarşı İngiltərə, Osmanlı və Qacarlar dövlətlərinin tədbirləri. Qacarlar ordusunun yeniləşdirilməsinə İngiltərənin yardımı. Rusiya əleyhinə Osmanlı-Qacarlar anlaşması.

İkinci Rusiya-Qacarlar müharibəsinin başlanması. Əsas döyüşlər. Rusiya ağalığına qarşı Azərbaycanda üsyanlar. Rus ordusunun Azərbaycanda yeni işğalları. Erməni əhalisinin rus ordusuna yardımları. Türkmənçay sülhü və onun Azərbaycan üçün nəticələri.

«Erməni vilayəti»nin yaradılması. Ermənilərin Şimali Azərbaycana köçürülməsi və Azərbaycan torpaqlarında yerləşdirilməsi.

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi. Azərbaycanda aparılan hərbi əməliyyatlar. Ədirnə sülhü və onun Azərbaycan üçün nəticələri. Axalsix, Axalkalaki bölgələrindən müsəlman-

türk əhalinin sıxışdırılması. Yeni işğal edilən bölgələrə ermənilərin yerləşdirilməsi.

## ŞİMALİ AZƏRBAYCAN XIX ƏSRİN 30-50-Cİ İLLƏRİNDƏ

XIX əsrin 30-50-ci illərində Rusiyanın Azərbaycanda müstəmləkə rejimini təkmilləşdirmək tədbirləri. Hərbi-inzibati idarəçilik. Şimali Azərbaycana rus, alman və ermənilərin köçürülməsi. Çarizmin demoqrafik vəziyətin dəyişdirilməsi sahəsində tədbirləri.

Müstəmləkə əsarəti əleyhinə və antifeodal xalq çıxışları: iştirakçıları, tələbləri. Çarizmin üsyanları yatırmaq üçün tədbirləri. Üsyanların nəticələri.

XIX əsrin 40-cı illərində inzibati idarəçilik, məhkəmə sistemində dəyişikliklər. Şimali Azərbaycanda idarə-məhkəmə strukturlarının Ümumrusiya qaydalarına uyğunlaşdırılması cəhdləri.

Qafqaz canişinliyinin təsis edilməsi. Inzibati-ərazi bölgüsündə dəyişikliklər. Şimali Azərbaycan torpaqlarının müxtəlif quberniyalara parçalanması. Xalqların yaşadığı tarixi ərazilər və inzibati sərhədlərin uyğunsuzluğu.Yerli feodal, ruhani zümrələrinə münasibət. Kəndli əsasnamələri.

Iqtisadi vəziyyət. Kənd təsərrüfatı. Torpaq mülkiyyəti formaları. Torpaq fondunun əsas hissəsinin dövlətin əlində cəmləşdirilməsi. Vergi və mükəlləfiyyətlər. Sənətkarlıq və ticarət. Şəhər həyatı. Şimali Azərbaycanda ticarətin inkişaf etdirilməsi üzrə tədbirlər. Azərbaycanın Şərq ölkələri ilə əlaqələrinin məhdudlaşdırılması.

## AZƏRBAYCANDA BURJUA İSLAHATLARI KEÇİRİLMƏSİ

XIX əsrin 60-cı illərində Azərbaycanda ictimai-siyasi və sosial-iqtisadi vəziyyət. Feodal qaydalarının iqtisadi inkişafı ləngitməsi. Rusiya imperiyasının mərkəzində həyata keçirilən islahatların Azərbaycana dərhal şamil edilməməsi səbəbləri.

Şimali Azərbaycanda kəndli islahatına hazırlıq tədbirləri. Mərz palatası. Mərzləşdirmənin başlanması. Kənd cəmiyyətləri haqqında əsasnamə. Kəndli yığıncaqlarının hüquq və vəzifələri. Kənd idarələri. Kəndxuda seçilməsi. Bəy komissiyalarının fəaliyyəti. Bakı, Gəncə və İrəvan quberniyalarında kəndli islahatı keçirilməsi. Azərbaycanda islahatın fərqli cəhətləri.

Kəndli islahatının mülkədar təsərrüfatlarına və kəndlilərin vəziyyətinə təsiri.

Dövlət kəndlilərinin torpaq məsələsi. 1 may 1900-cü il qanununun mahiyyəti. Torpaq payının müəyyən edilməsi. Vergi və mükəlləfiyyətlər.

1912-1913-cü illərin aqrar qanunları. Müvəqqəti mükəlləfiyyətliyin ləğvi.

Məhkəmə islahatı. Şimali Azərbaycanda məhkəmə islahatının məhdud cəhətləri. Hakimlər. Inzibati cəzalar. Barışıq hakimləri. Məhkəmə orqanlarında bürokratizm və süründürməçilik.

Şəhər islahatı. Şəhər dumaları. Şəhər özünüidarə orqanlarının yaradılması. Seçki senzi. Yerli xalqların şəhər idarələrində iştirakının məhdudlaşdırılması.

Hərbi islahat. Türk-müsəlman əhalinin hərbi mükəlləfiyyətə cəlb edilməməsi səbəbləri. Hərbi verginin tətbiqi.

Inzibati idarəçilikdə dəyişikliklər. Yeni inzibati bölgü. Şimali Azərbaycanda quberniyalara bölgüdə yeniliklər. Qafqaz canişinliyinin ləğvi. Əks-islahatlar. Yerli xalqlara münasibətin sərtləşməsi.

## İSLAHATDAN SONRAKI DÖVRDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFI

Əkinçilik təsərrüfatında baş verən yeniliklər. Taxılçılığın inkişafı. Əkinçilikdə təkmil alətlərin tətbiqi. Azərbaycanın ayrı-ayrı bölgələrinin təsərrüfat sahələri üzrə ixtisaslaşmasının başlanması. Texniki bitkilər əkilməsi. Əsas pambıqçılıq və üzümçülük rayonlarının formalaşması. Tütünçülük. Meyvəçilik.

Maldarlıqda baş verən dəyişikliklər. Qoyunçuluqda əmtəə təsərrüfatının inkişafı. Yun

istehsalı və ixracının genişlənməsi. Atçılıq.

Mülkədar və kəndli təsərrüfatlarının əmtəə istehsalına keçmələrində fərqli xüsusiyyətlər. Muzdlu əmək tətbiqi. Kəsbkarlıq. Qolçomaq təsərrüfatlarının yaranması və inkişafı.

Əsas sənaye istehsal sahələrində baş verən yeniliklər. Neft sənayesinin inkişafı. Abşeron yarımadasında neft istehsalı. Xarici kapitalın axını. Neft emalı sənayesinin yaranması. Neft quyuları qazılması və istismarında texniki yeniliklər. Inhisarlaşmanın başlanması.

Əlvan metallurgiya sənayesinin inkişafı. Mis istehsalı mərkəzləri. Əlvan metallurgiyada xarici kapitalın yeri.

Mexaniki istehsal sahələrinin inkişafı. Neft sənayesinə və dəmir yolu nəqliyyatına xidmət edən mexaniki zavod və emalatxanalar. Gəmi təmiri.

Şərabçılığın inkişafı. Araq, konyak istehsalı. Pivə emalı. Balıqçılıq. Xəzər dənizində balıqçılığın iri sənaye sahəsinə çevrilməsi. Balıq və kürü ixracı. Tütün emalı fabrikləri. Tütün və tənbəki istehsalı mərkəzləri.

Ipəkçilik. İpək istehsalını genişləndirmək tədbirləri. Pambıqtəmizləmə, biyankökü emalı sənaye sahələrinin yaranması. Pambıq-parça istehsalı. Kustar toxuculuq sahələrinin vəziyyəti.

Tikinti materialları istehsalı. Ağac emalı. Kərpic zavodları. Sement istehsalına başlanması.

Çarizmin Azərbaycanda emaledici sənaye sahələrinin yaradılmasına mane olması. Kənd təsərrüfatı və sənaye sahələrində yeridilən siyasətin xarakterik cəhətləri.

Nəqliyyat. Quru yolları şəbəkəsinin inkişaf etdirilməsi tədbirləri. Tiflis-İrəvan, Tiflis-Bakı poçt yollarını şoseləşdirmək tədbirləri. Şimali Azərbaycanda quru yollarını abadlaşdırmaq sahəsindən atılan addımlar. Əsas su maneələri üzərindən körpü və bərələrin inşası.

Dəmir yolları çəkilməsinə başlanması. Poti-Tiflis, Tiflis-Bakı, Samtredi-Batum dəmir yolu xətlərinin inşası. XIX əsrin sonu – XX əsrin əvvəllərində dəmir yolu nəqliyyatının inkişafı. Petrovsk-Dərbənd-Bakı, Tiflis-Qars, Tiflis-İrəvan-Culfa dəmir yolu magistrallarının inşası. Azərbaycanın Ümumrusiya dəmir yolu şəbəkəsinə qoşulmasının nəticələri.

Su nəqliyyatını inkişaf etdirmək tədbirləri. Qara dənizdə və Xəzər dənizində gəmiçiliyin inkişafı. Neft məhsulları daşıyan donanmanın yaradılması. Əsas limanlar.

Boru kəməri nəqliyyatının yaradılması. Bakı-Batum ağ neft kəmərinin inşası.

Ticarətin inkişafı. Iri şəhərlərin ticarət mərkəzləri kimi əhəmiyyətinin artması. Daxili və xarici ticarətin həcminin genişlənməsi. Ticarət *yarmarkaları*. Həftəbazarları.

Kapitalist münasibətlərinin inkişafının sosial həyata təsiri. Kənddə ictimai təbəqələşmənin başlanması. Mülkədar təsərrüfatında dəyişikliklər. Mülkədarların əmtəəlik məhsul istehsalında iştirakı. Qolçomaq təsərrüfatının xarakterik cəhətləri. Kənd təsərrüfatında muzdlu əmək tətbiqinin nəticələri.

Şimali Azərbaycana Rusiyadan və Ukraynadan əhali köçürülməsinin geniş miqyas alması. Çarizmin köçürmə siyasətinin kənddə aztorpaqlı və torpaqsız əhalinin sayının artmasına təsiri.

Kapitalistlərin sayının artması. Ayrı-ayrı istehsal sahələrində yerli və xarici kapitalın payı. Kapitalizmin ictimai həyatda yaratdığı dəyişikliklər.

Azərbaycan xalqında milli şüurun inkişafı. Milli ziyalıların və ictimai xadimlərin milli oyanışda iştirakı. Ermənilərə qatı millətçilik hisslərinin aşılanması. Millətlərin formalaşması.

## XIX ƏSRİN 80-90-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ HƏRƏKAT

Azərbaycan xalqında milli hisslərin güclənməsi. Rusiyanın müstəmləkəçilik və ruslaşdırma siyasətinə qarşı müqavimət. Milli mətbuatda və bədii əsərlərdə milli ideyaların təbliği. Ana dilində təhsil uğrunda mübarizə. Xalqçı çıxışlarının Azərbaycanın ictimai həyatına təsiri.

Fəhlə hərəkatının başlanması. Ilk fəhlə çıxışları. Tətil hərəkatı. Ilk tətillərdə irəli sürülən tələblər. XIX əsrin 90-cı illərində tətil mübarizənin güclənməsi. Fəhlə çıxışlarının nəticələri.

Kəndli hərəkatının əsas formaları. Irəli sürülən tələblər. Hakimiyyət nümayəndələrinə və feodallara qarşı çıxışların çoxalması. Kəndli üsyanları. Azərbaycanda qaçaqçılıq hərəkatının başlanması.

Erməni millətçi təşkilatlarının yaranması. Qnçak partiyasının pozuculuq fəaliyyəti.

Daşnaksütyun partiyasının proqram sənədlərində siyasi və milli mübarizə metodları. Daşnakların terror aktları.

## XX ƏSRİN BAŞLANĞICINDA AZƏRBAYCANDA MİLLİ-AZADLIQ HƏRƏKATI VƏ SİYASİ MÜBARİZƏ

Milli burjuaziyanın fəallaşması. Milli şüurun inkişafında ziyalıların rolu. Çarizmin milli-müstəmləkəçilik siyasətinə qarşı milli-azadlıq mübarizəsi. Milli təşkilat və partiyaların yaranması. Mədəni-milli muxtariyyət uğrunda çıxışlar.

Fəhlə sinfinin sıralarının artması. Fəhlə hərəkatının güclənməsi, siyasi nümayişlər. Tətillər.

Kadetlər, Eserlər, RSDFP və digər Rusiya partiyalarının Azərbaycanda yerli təşkilatlarının fəallaşması.

Erməni qatı millətçi təşkilatlarının fəaliyyəti. Daşnaksütyun partiyasının terrorçu fəaliyyətinin genişlənməsi.

1905-1907-ci illər inqilabı dövründə sinfi və milli-azadlıq mübarizəsi. Çarizmin milli ədavəti qızışdırması. Erməni millətçilərinin azərbaycanlılara qarşı qətl və qarətləri. Azərbaycanlıların müdafiə tədbirləri. Azərbaycan milli burjuaziyasının və ziyalıların fəaliyyəti. Kəndli hərəkatının güclənməsi. Qaçaq dəstələrinin mübarizəsi.

Azərbaycanlı nümayəndələrin Rusiya Dövlət Dumalarında iştirakı. Duma iclaslarında Azərbaycanla bağlı məsələlərin müzakirəsi. Azərbaycanda yerli özünüidarə orqanları yaradılması uğrunda mübarizə.

## AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ FEVRAL İNQİLABI DÖVRÜNDƏ

Azərbaycan müharibə iştirakçılarının planlarında. Azərbaycan xalqının müharibəyə münasibəti. Erməni millətçilərinin Osmanlı imperiyasının Şərq vilayətləri hesabına erməni dövləti yaratmaq planları.

Qafqaz cəbhəsində döyüşlər. Sarıqamış əməliyyatı. Acarların rus ordusu tərəfindən kütləvi məhv edilməsi. Qafqaz canişininin müsəlman əhalisinə münasibətinin şərtləşməsi. Rus ordusu tərəfdən erməni silahlı dəstələrinin vuruşması. Dinc əhaliyə qarşı erməni yaraqlılarının qətl və qarətləri. Hərbi əməliyyatlar bölgələrindən erməni əhalisinin qaçqın düşməsi. Osmanlı dövlətinin ordunun təchizatını təmin etmək və dinc əhalini qorumaq tədbirləri. Uydurma «erməni soyqırımı» məsələsi. Rus və qərb tədqiqatçılarının bu məsələyə münasibəti.

Azərbaycanın ictimai-siyasi xadimləri arasında Rusiya əsarətindən azad olmaq planları. Azərbaycan nümayəndələrinin Osmanlı və Almaniya hakim dairələrindən yardım xahişləri. Azərbaycan əhalisi arasında Osmanlı dövlətinə rəğbətin artması. Müharibənin iqtisadi həyata və əhalinin güzəranına təsiri. Nəqliyyat və yanacaq sahəsində çətinliklərin artması. Ərzaqla təchizatın pisləşməsi. Çarizmə qarşı çıxışların güclənməsi.

Fevral inqilabından sonra Azərbaycanda vəziyyət. Xüsusi Cənubi Qafqaz Komitəsinin yaradılması. Azərbaycanda milli hərəkatın güclənməsi. Demokratik dəyişikliklər uğrunda mübarizə.

## XIX-XX ƏSRİN BAŞLANĞICINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

*Maarif.* Azərbaycanda rus məktəblərinin açılması. Qəza məktəbləri. Tiflis gimnaziyası. Dini məktəb və mədrəsələr. Məktəb və mədrəsələrdə təhsilin səviyyəsi. XIX əsrin ikinci yarısında məktəblərin sayının artması. Gimnaziyalar və sənət məktəbləri. Qız məktəbləri. Cənubi Qafqaz (Qori) müəllimlər seminariyasının fəaliyyəti. Erməni dini məktəblərində qatı millətçiliyin təbliği.

XX əsrin əvvəlində təhsilin vəziyyəti. Milli məktəblərin açılması. Yeni müəllim seminariyalarının açılması. Çarizmin maarif sahəsində müstəmləkəçilik siyasəti.

*Elm*. Elmi biliklərin inkişafı. Tarix sahəsində tədqiqatlar. A.Bakıxanov. Coğrafiya. Digər elm sahələri. Azərbaycanlı alim və mütəxəssislərin Rusiya elminin inkişafında xidmətləri. M.C.Topçubaşov və M.Kazımbəyin Rusiyada şərqşünaslıq elminin əsasını qoymaları.

Rusiyalı alim və mütəxəssislərin Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi və mənimsənilməsi istiqamətində araşdırmaları. Azərbaycan tarixinin obyektiv tədqiqi sahəsində A.Berje, V.Veliçko, N.Şavrov və digər mütəxəssislərin xidmətləri.

*Mətbuat*. Azərbaycanda dövri nəşrlərin yaradılması. İlk qəzet və jurnallar. «Kavkaz», «Kavkazskiy kalendar».

Azərbaycanın milli mətbuat orqanlarının yaradılması. H.Zərdabi və onun «Əkinçi» qəzeti. «Molla Nəsrəddin» jurnalı səhifələrində Rusiya hakim dairələrinin Azərbaycanda millətlərarası ədavəti qızışdırmaq siyasətinin ifşası. Erməni mətbuat orqanlarında millətçiliyin təbliği. Q.Arsruninin «Mşak» qəzeti.

*Ədəbiyyat və incəsənət*. Ədəbi cərəyanlar və ədəbiyyat xadimləri. M.F.Axundovun və C.Məmmədquluzadənin əsərlərinin milli oyanışa təsiri.

Azərbaycanın milli teatrlarının yaradılması. Opera və musiqinin inkişafı. Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq. Azərbaycanın mədəni əlaqələri.

### *III HİSSƏ*
### *MÜASİR DÖVR*

## 1917-Cİ İLİN YAZI – 1918-Cİ İLİN ƏVVƏLİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

Yerli hakimiyyət orqanlarının yenidən qurulması. Yeni hakimiyyət qurumlarının fəaliyyətində nöqsanlar. Müvəqqəti hökumətin Azərbaycanda müstəmləkəçilik siyasəti.

Əhalinin həyat şəraitinin ağırlaşması. Ərzaq təchizatında çətinliklər. Nəqliyyatda böhranın dərinləşməsi. Milli münaqişələrin və toqquşmaların artması. Erməni hərbi birliklərinin cəbhə bölgələrində özbaşınalıqları. Müsəlman-türk əhalisinə qarşı qətl və qarətlərin kütləvi hal alması. Milli qırğınların qarşısını almaq tədbirlərinin uğursuzluğu.

Azərbaycanda siyasi partiyaların və milli təşkilatların leqal fəaliyyətə keçmələri. Yeni şəraitdə irəli sürülən tələblər. Milli Şuraların xalq hərəkatına rəhbərlik etmək uğrunda mübarizəsi.

Sovetlərin yaranması. Fəhlə, kəndli, əsgər deputatları sovetlərində təmsil olunan siyasi qüvvələrin proqram tələbləri. Azərbaycanda demokratik dəyişikliklər uğrunda mübarizənin güclənməsi. Rusiyada federativ respublika yaradılması, xalqlara milli-məhəlli muxtariyyət verilməsi tələbləri.

Oktyabr çevrilişindən sonra Azərbaycanda ictimai-siyasi vəziyyətin ağırlaşması. Bolşevik hakimiyyətinə Azərbaycanın münasibəti.

Cənubi Qafqaz Komissarlığının yaradılması və ilk tədbirləri. Milli fraksiyaların formalaşması. Azərbaycan cəbhəsində hərbi əməliyyatların dayandırılması istiqamətində çalışmalar.

Ərzincan barışığı. Cəbhədən çəkilən rus hərbçilərinin özbaşınalıqları. Erməni və gürcü silahlı qüvvələrinin formalaşdırılması. Azərbaycan nümayəndələrinin Müsəlman korpusu yaradılması və silahla təchizi sahəsində addımları.

Rusiya Müəssislər Məclisinə seçkilər. Milli partiyaların nüfuzunun artması. Rusiya Sovet hökumətinin Azərbaycanda təsirini yaymaq tədbirləri. Müsəlman əhaliyə qarşı qətl və qarətlərin artması.

